Ədəbiyyat QƏZETİ

# Rəfail İNCƏYURD - 70



Hörmətli Rəfail İncəyurd!

Sizi - tanınmış şair və publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 4 iyul 1954-cü ildə Qazax rayonunun Kəmərli kəndində ziyalı ailəsində anadan olmusunuz. 1971-ci ildə Kəmərli kənd orta məktəbini bitirib, 1972-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Mexanika-riyaziyyat fakültəsində ali təhsil almısınız.

Universiteti bitirdikdən sonra Qubadlı rayonunun Fərcan kənd orta məktəbində iki il müəllim işləyib, sonra BDU-nun Hesablama Mərkəzində və 1986-cı ilədək Bakı şəhərinin bir sıra müəssisələrində ixtisasınız üzrə çalışıbsınız. 1986-cı ildən ədəbi fəaliyyətə daha çox önəm verərək, BDU nəşriyyatında redaktor, böyük redaktor, "Təhsil" nəşriyyatında redaktor, "Diplomat" nəşriyyatında baş redaktor, "Xarici Siyasət Arxivi" jurnalında baş redaktorun müavini, Odlar Yurdu Universitetinin nəşriyyatında redaktor vəzifələrində işləmisiniz.

Ədəbi yaradıcılığa erkən yaşlarınızdan başlamısınız. 1975-ci ildən dövri mətbuatda şeir və publisistik yazılarla müntəzəm çıxış edirsiniz. Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanları olan "Azərbaycan" və "Ulduz" jurnalları, "Ədəbiyyat qəzeti" müntəzəm olaraq yaradıcılığınıza geniş yer ayırıb. Şeirləriniz Azərbaycanda və ölkə xaricində çap olunmuş ədəbi antologiyalara daxil edilib. Siz respublikanın bir çox televiziya və radio kanallarının hazırladığı ədəbi-bədii proqramlarda vaxtaşırı çıxışlar edir, ədəbi prosesə öz obyektiv münasibətinizi bildirirsiniz. Türkiyə və Rusiya mətbuatında da çap olunursunuz. Şeirləriniz rus, ingilis, fars dillərinə tərcümə edilib (tərcüməçilər: Giya Paçxataşvili, Məsmə İsmayılova, Əli Rza Zihak).

"Ömürdən o yana yollar uzanır" adlı ilk şeirlər kitabınız 1996-cı ildə "Səda" nəşriyyatında işıq üzü görüb. Bundan sonra davamlı olaraq "Könül dünyam" ("Diplomat", 2001), "Köhnə kişilər", ("Adiloğlu", 2004), "Köz yaşı", ("OKA-Ofset", 2007), "15-imdən 55-ə varanda..." ("İncə" nəşriyyat evi, 2009), "ÖZü SÖZə ucaltmışlar odası" ("Zərdabi LTD MMC", 2014), "Arzuların yuvasına toxunma" ("Zərdabi LTD MMC", 2016), "Səcdə", ("Radius", 2019) adlı yeddi kitabınız nəşr edilib.

Azərbaycanın tanınmış ədəbiyyatşünas alimləri və ədəbi tənqidçilər yaradıcılığınızla bağlı elmi araşdırmalar aparıb, kitablarınız haqqında məqalələr yazıblar.

"ÖZü SÖZə ucaltmışlar odası" adlı publisistik məqalələr, oçerklər və esselər kitabınızda tanıdığınız qələm dostlarınıza həsr etdiyiniz ədəbi məqalələr və publisistik söhbətlər yer alır.

200-dən çox elmi və bədii kitaba redaktorluq edib, Ön söz və təqdimatlar yazıbsınız.

Ona qədər ayrıca kitab və topluların tərtibçisisiniz.

Türkiyənin Kayseri şəhərinin Erciyez Universitetində birinci kitabınız haqqında diplom işi yazılıb (Sevil Satılmış, elmi rəhbər prof. Bayram Durbilməz).

Azərbaycan Yazıçılar Birliyi ilə yanaşı, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Aşıqlar Birliyinin də üzvüsünüz.

Bir sıra ədəbi mükafatlar laureatısınız.

2011-ci ilin Prezident mükafatçısısınız.

Üç övlad, altı nəvədən ibarət nümunəvi ailə başçısısınız.

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzu edirik.

**Azərbaycan Yazıçılar Birliyi**